BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2010*

# AZƏRBAYCAN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN IX PLENUMU (6 İYUL 1959-cu İL) HAQQINDA

**İ.X.ZEYNALOV, X.R.SƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***zeynalov_ibrahim@hotmail.com***

*Elmi məqalədə 6 iyul 1959-cu ildə keçirilmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda respublika rəhbərliyinin fəaliyyəti ilə bağlı çıxışlar təhlil edilir. Məqalədə mərkəzi respublika rəhbərlərini vəzifədən uzaqlaşdırmaq üçün Sov. İKP MK təşkilat şöbəsinin müdir müavini İ.Şikininin rəhbərliyi ilə Azərbaycana göndərilmiş komissiyanın hazırladığı iftira və böhtanlarla dolu hesabat və təkliflərin müzakirəsi də mühüm yer tutur. Həmçinin məqalədə Moskvanın mürtəce millətçilik siyasətinin mahiyyəti, hakim millətçiliyin təzahürləri, respublika rəhbərliyinə qarşı qərəzli mövqeyi, respublikada gedən demokratik-meylli proseslərə qısqanclığı və s. məsələlər də diqqəti cəlb edir. Eyni zamanda məqalədə İ.D.Mustafayevin, S.Rəhimovun, M.İbrahimovun plenumdakı çıxışları əsas yer tutur.*

XX əsrin 50-ci illərinin ortalarından Azərbaycan SSR-in sosial-iqtisadi və mədəni həyatında başlayan müsbət dəyişikliklərə son anda mərkəz qısqanclıqla yanaşmağa başladı.

Bakı şəhərinin demoqrafik vəziyyətinin dəyişdirilməsi, dil haqqında qanunun qəbul edilməsi, mədəni-maarif və təhsil sahəsindəki yeniliklər, idarəçilik sahəsindəki islahatlar, respublikanın təbii-coğrafi vəziyyətinə və iqlim şəraitinə uyğun milli iqtisadi strukturun yaradılmasına edilən cəhdlər, sənayedə və kənd təsərrüfatında əldə edilən uğurlar, kadrların seçilməsi, yerləşdirilməsi işindəki uğurlu göstəricilər və digər uğurlar üzərinə kölgə salındı, bu nailiyyətləri mərkəz milli respublikaların hüquqlarına zidd olan faktlarla izah etməyə çalışdı. Azərbaycanda başlamış milli dirçəliş meylləri rus şovinizmi ilə qarşı-qarşıya gəldi, ciddi müqavimətə rast gəldi.

Hər şeydən əvvəl dil haqqında qanun (1956-cı il avqust) partiyanın milli siyasətinə zidd hal kimi qiymətləndirildi, beynəlmiləlçiliyə zərbə, əhalidə millətçi əhval-ruhiyyə əmələ gətirilməsi kimi səciyyələndirildi.

Hər şeydən əvvəl, Mərkəz respublika rəhbərlərini – İ.Mustafayevi, M.İbrahimovu, S.Rəhimovu vəzifədən götürmək yolu tutdu. Bu cəza isə "əsaslandırılmalı" idi. Bu baxımdan H.S.Xurşşovun göstərişi ilə Azərbaycan Partiya təşkilatının işini yoxlamaq üçün Sov. İKP MK təşkilat şöbəsinin müdir müavini İ.Şikinin başçılığı ilə 26 nəfərdən ibarət komissiya göndərildi. Komissiya iftiralarla dolu, mərkəzin əvvəlcədən planlaşdırdığı qaydada Moskvanı təmin edən bir hesabat yazdı. Hesabat Azərbaycanda yaşayan qeyri-azərbaycanlıların Moskvaya göndərdikləri qərəzli müraciət-

ləri əsasında hazırlanmışdı. Hesabatda 1959-cu ildə rus məktəblərində Azərbaycan dilinin icbari tədrisi haqqında Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qanun İ.Şikin komissiyası tərəfindən çox diqqətlə və qərəzli şəkildə araşdırıldı (2, 466). Komissiyanın hazırladığı hesabata daxil edilən hər bir məsələ Respublika rəhbərliyində gizlin saxlanılırdı. Yoxlama materialları respublika rəhbərlərini vəzifədən uzaqlaşdırmaq üçün əsas oldu. Yoxlamada önə çəkilən iradlardan bəzilərini diqqətə çəkək. Məsələn, guya Azərbaycanda M.Əzizbəyovun ev-muzeyi çox əzəmətli bir binada yerləşdiyi halda S.M.Kirovun adına olan muzey görkəmsiz bir binada yerləşir. Əslində isə S.M.Kirovun ev-muzeyi onun Bakıda yaşadığı ikimərtəbəli yaraşıqlı daş evdə, Əzizbəyovun ev-muzeyi isə birmərtəbəli evdə, girişi birbaşa küçədən olan bir dəhlizdə yerləşirdi. Daha bir ittiham ondan ibarət idi ki, guya Azərbaycanda oktyabr inqilabının tarixi obyektiv öyrənilmir, yazılmır. Daha sonra dil haqqında: guya Azərbaycan SSR Ali Sovetinin sessiyasının müzakirəsinə verilmiş qanun layihəsində yazılırdı ki, respublikanın bütün təhsil müəssisələrində uşaqların təhsili yalnız Azərbaycan dilində aparılmalıdır. Digər bir iradda bildirilirdi ki, ittifaq respublikalarda neft sənayesi nazirliyi ləğv olunduğu halda, Azərbaycanda İ.D.Mustafayev onun ləğvinə imkan verməmişdir (1, 18). O, guya respublika rəhbərliyi təsərrüfat "planlarının yerinə yetirilməsi ilə kifayətlənirdi. Mərkəz bildirirdi ki, Azərbaycanda insanların beynəlmiləl tərbiyəsi yarıtmaz vəziyyətdədir, xalqlar dostluğu ideyaları tələb olunan səviyyədə deyil.

İ.D.Mustafayev həm də millətçilikdə təqsirləndirilirdi. (3. 24-29 iyun).

1959-cu il iyunun 24-29-da keçirilmiş Sov. İKP MK-nın tarixi plenumunda çıxış edən N.S.Xruşşov respublika rəhbərliyinin fəaliyyətini tənqid edərək, Azərbaycan dilini Dövlət Dili elan etmiş Azərbaycan SSR Ali Sovetinin qərarına öz qeyri - obyektiv münasibətini bildirir. O, barmağını İ.D.Mustafayevə uzadaraq: yoldaş Mustafayev, siz milli siyasət sahəsində böyük əyintilərə yol vermişsiniz, dil haqqında qəbul etdiyiniz qərarla siz digər millətlərin hüquqlarını pozmuşsunuz (3, 24-29 iyun)

Beləliklə, respublika partiya təşkilatının və respublika rəhbərliyinin işi Azərbaycan KP MK-nın 7 iul 1959-cu il Plenumunda müzakirə olundu. Plenumda İ.S.Mustafayev çıxış edərək bildirdi ki, bir şeyə təəssüf edirəm, bu da iki nəfərin qərəzli çıxışıdır ki, onların nə qədər ədalətli və ədalətsiz olmalarına da mən cavab vermək istəmirəm. Bu Rəhimov və Sadıxovun çıxışlarıdır. Qalan çıxışlarla mən ümumilikdə razıyam. Hesab edirəm ki, yoldaşlar haqlı olaraq bizi tənqid edirlər. Bizim işimiz plenuma qədər bu səviyyədə partiyasayağı kəskin tənqidə məruz qalmamışdı. Xüsusən məni heç vaxt, heç kim lazım olduğu kimi tənqid etməmişdi. Hamısı: "Siz, necə gözəl çıxış edirsiz, Mustafayev", "siz necə gözəl hər şeyi ümumiləşdirdiniz" - deyə tərifləyirdilər. Konkret olaraq deyə bilərəm ki, mən iki gündür burada özümə yer tapa bilmirəm. Mən dərk edirəm ki, I katib kimi bu vəzifədə özümü doğrultmadım. Həmçinin sizin mənə göstərdiyiniz inamı və etimadı da doğrultmadım. Bu mənim üçün çox acı və ağrıdır.

Mən elə siyasi yüksəkliyə çatmadım ki, respublikada yer alan nöqsanlar və səhvlər buraxmayım. Nəinki partiya təşkilati tərəfindən, ümumiyyətlə mənim üçün bağışlanmazdır ki, kənd təsərrüfatı mütəxəssisi olduğum halda, rəhbərliyim altında işləyən adamları vicdanlı, düzgün hesab edərək onların nöqsanlarına göz yummuşam. Bu mənim ən kobud səhvimdir. Əgər mən onlara ciddi tələbkarlıqla yanaşsaydım, onlar öz işlərində olan çatışmazlıqları aradan qaldırardılar.

Yoldaşlar haqlı olaraq qeyd edirlər ki, ideoloji işdə də mən zəif olmuşam. Yoxsa bu işlərə düzgün istiqamət verə bilərdim.

Mən dövlət dili haqqında qanun qəbul edildikdən sonra yaranmış vəziyyətə aydınlıq gətirməyə çalışdım. Universitetdə, akademiyada, fəhlə, kəndli təşkilatlarının konfranslarında və bir çox iclaslarda çıxışlar etdim. Lakin bu çıxışlar görünür, çox da inandırıcı olmayıb. Biz başa düşməmişik ki, bu qərarın qəbulu hansı nəticələrə gətirib çıxara bilər. Bu bizim siyasi cəhətdən yetkin olmadığımızı bir daha sübut etdi və bizə heç nə haqq qazandıra bilməz. Biz həmçinin Azərbaycan KP tarixinin yazılmasında bir sıra səhvlərə yol vermişik. Göstərməyə çalışmışıq ki, Azərbaycan bolşeviklərinin inqilabi hərəkatda müstəsna rolu olmuşdur. Əlbəttə ki, bu düz deyil. Biz müstəsna ola bilmərik. Çünki inqilabi biz təkbaşına etməmişdik. Rus xalqının köməyi olmadan biz inqilab edə bilməzdik. Oktyabr inqilabı olmasaydı, rus xalqının qardaşlıq köməyi olmasaydı, Azərbaycan xalqı özü-özlüyündə heç nəyə nail ola bilməzdi. Biz kitabda bu məsələni aydın və qabarıq şəkildə verməli idik. Mən 1 katib olsam da, xırda, lazımsız, özümə dəxli olmayan çox məsələlərlə məşğul olmuşam. Sanballı siyasi məsələlər isə mənim nəzər diqqətimdən kənarda qalmışdır.

Gənc kadrların irəli çəkilməsi məsələsində də qətiyyətli olmamışam. Biz gənclərin məsuliyyətli işlərə irəli çəkilməsindən ehtiyat etmişik. Bu cəsarətsizlik, uzaqgörməyənlik ona gətirib çıxarmışdır ki, öz işinin öhdəsindən gəlməyi bacarmayan bir çoxları uzun müddət vəzifədə qalır, işlərin gedişinə mane olurdular. Biz isə onlara liberal yanaşırdıq (4.V. 12-32)

Müəllifin fikri bildirilsin.

Plenumda çıxış edən V.Axundov bildirdi ki, partiyanın milli siyasətinin həyata keçirilməsində, ideoloji işə rəhbərlikdə ciddi nöqsanlar və səhvlər vardır, bu da zəhmətkeşlərin beynəlmiləl ruhda tərbiyəsi məsələsinə və xalqlar arasında dostluğun möhkəmlənməsinə zərər yetirir.

Məlum olduğu kimi, 1956-cı ilin avqust ayında respublika Ali Soveti Rəyasət Heyətinin keçmiş sədri M.İbrahimovun təşəbbüsü, Azərbaycan KP MK bürosunun razılığı və tövsiyəsi ilə Respublika Ali Sovetinin sessiyasında Azərbaycan dilinin dövlət dili kimi təsdiq edilməsi haqqında qanun qəbul edilmişdir.

Soruşulur ki, 1956-cı ildə, yəni Azərbaycanda Sovet hakimiyyətinin 36-cı ildönümündə dövlət dili haqqında qanun qəbul edilməsinə hansı praktiki zərurət var idi. MK Rəyasət Heyətindəki çıxışında N.S.Xruşşov qeyd etmişdir ki, hər bir respublikada dövlət dili onun milli dilidir.

O ki qaldı respublikanın bəzi idarələrində Azərbaycan dilinin istifadəsində yer almış nöqsan və pozğunluqları başqa yollarla düzəltmək olardı. Lakin bu edilməmişdir. Aydın olur ki, Azərbaycan KP MK rəhbərləri dövlət dili haqqında rəsmən həll edərkən kifayət qədər siyasi yetkinlik göstərməmişdir.

Azərbaycan dilinin dövlət dili kimi tanınması məsələsi respublikanın həyatında özünün mənfi nəticələrini göstərdi. Bunlar partiyanın milli siyasətində pozğunluqlara və millətçi əhval-ruhiyyənin baş qaldırılmasına səbəb oldu. (5.V.161-169).

Bu məsələ əhalinin əsasən ziyalı və tələbə gənclər təbəqəsi arasında milliyyətçi ehtiraslarının oyanması və alovlanması məqsədi ilə müxtəlif demoqoq və milliyyətçi elementlər tərəfindən istifadə edilmişdir və edilməkdədir.

Qeyd etmək lazımdır ki, məktəb işinin yenidən qurulması haqqında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin tezislərində ifadə edilmiş göstərişlər dil haqqında

qəbul edilmiş qanunla düz gəlmirdi və bu da yenidən Azərbaycan dili məsələsinin geniş ictimaiyyətin diqqət mərkəzində olmasına səbəb oldu.

Altı ay əvvəl Bakıda elmi ictimaiyyət tərəfindən «Azərbaycan Kommunist Partiyasının tarixi» kitabı üzrə keçirilən iclasdan sonra MK bürosu iclasın nəticələrini müzakirə etməyi və haqlı tənqidə öz münasibətini bildirməyi lazım bilmədi.

Nöqsanlar və səhvlər təkcə tarixi - partiya məsələlərinin işıqlandırılmasında yer almır. Həmçinin bu çatışmazlıqlar ideoloji işin başqa sahələrində də - mətbuatda, radioda, kino, televiziya və yaradıcı təşkilatların fəaliyyətində də vardır (5.V.218-220)

Bu gün plenumda bütün açıqlığı ilə təsdiq etməliyik ki, son zamanlar zəhmətkeşlərin beynəlmiləl ruhda tərbiyəsi, xalqlar arasında dostluq ideyasının, kommunist partiyasının milli siyasətdə böyük nailiyyətlərinin sahəsində iş çox zəifləmişdir. Qəzet və jumalların səhifələrində, bədii ədəbiyyatda, radio, televiziya verilişlərində qardaş müttəfiq respublikaların həyatını göstərən materiallar azdır.

Azərbaycan KP MK bürosu ideoloji işdə olan nöqsan və səhvləri əsaslı müzakirəyə qoymur, ayrıca yer alan milliyyətçi təzahürlərlə qətiyyətli mübarizə aparmır, respublikanın həyatında siyasi əqidənin təşkili və istiqamətləndirilməsində öz rolunu zəif icra edir.

Sözsüz ki, Azərbaycan KP MK katibi İ.Mustafayevdə İslamzadənin hərəkət və əxlaqında olan ciddi nöqsanlar barədə məlumat var idi. Buna baxmayaraq, onun Azərbaycan SSR Nazirlər Kabinetinin SSRİ hökumətində daimi nümayəndəsi vəzifəsinə namizədliyi irəli sürüldü. İslamzadənin müavini vəzifəsinə təyin edilən fırıldaqçı Məmmədovun iki pasportu, iki evi olduğu və müxtəlif çirkin işlərlə məşğul olduğu məlumdur.

Azərbaycan KP bürosu və müxtəlif yerli partiya orqanlarında kadrların tərbiyəsi işində bolşeviklərin təcrübədən tənqid və özünütənqid kimi metodlarından lazımınca istifadə olunmur.

Lakin Mustafayev özü onun ünvanına deyilən tənqidlə çox pis qarşılaşdığı halda, burada hansı tənqiddən söhbət gedə bilər.

Misal üçün belə bir faktı göstərə bilərik. «Bakinskiy raboçiy» qəzetinin müxbiri Əliyev Ağdam rayon partiya komitəsinin birinci katibi Mustafayevin ünvanına ciddi tənqidi məqalə ilə çıxış edir. Bu məqalənin araşdırılmasını MK bürosu rayon komitəsinin I katibi Mustafayevin özünə həvalə edir. Belə çıxır ki, tənqid olunanın taleyi araşdırılmaq üçün tənqid olunanın özünə verilir.

Yalnız Sov.İKP MK işə qarışdıqdan sonra Azrəbaycan KP MK bürosu məqalənin araşdırılması haqda qərar verir.

MK I katibi İ.D.Mustafayev özünü düzgün aparmır, ünvanına deyilən kiçicik tənqidi qeydi çox həyəcanla qarşılayır. Sov. İKP MK Rəyasət Heyəti və katibliyi yoxlamanın nəticələrini müzakirə edərkən Mustafayev özünü partiyanın, tələblərinə uyğun aparmadı. O, Sov.İKP MK Rəyasət Heyəti üzvlərinin onun ünvanına söylənilən ədalətli tənqiddən lazımi nəticə çıxarmaq əvəzinə, Sov.İKP MK işçilərinin MK bürosunun onun işində açdığı səhv və nöqsanları inkar etdi və bununla da o, 18-20 avqust 1955-ci ildə Azərbaycan Kommunist Partiyası MK bürosunun onun haqqında qəbul etdiyi qərardan nəticə çıxarmadığını təsdiq etdi (5.V.36-40).

Sov.İKP MK Rəyasət Heyəti və onun katibliyində İ.Mustafayev özünün partiyaçıya xas olmayan hərəkətilə əslində şəxsən N.S.Xruşşov tərəfindən ona təklif olunan köməkdən imtina etdi. Ona öz nöqsanlarını araşdırıb onu vicdanla etiraf

etməyə imkan verilirdi. Mustafayev isə Sov.İKP MK Rəyasət Heyətinin sonuncu iclasında öz səhvlərini və düzgün olmayan davranışını boynuna almağa məcbur oldu. (6.24-29 yanvar)

Azərbaycan KP MK büfosu və MK I katibi Mustafayevin beynəlmiləl dil sovet partiya və təsərrüfat kadrlarının seçilməsi və tərbiyəsi, sənaye və xüsusilə kənd təsərrüfatına rəhbərlik məsələlərində buraxdığı səhvlər adi yox, siyasi səhvlərdır. (5 iş 26, V 125-128)

Sov.İKP MK yoxlayıcı işçilərinin, MK Rəyasət Heyəti üzvlərinin, Rəyasət Heyətinin birinci iclasında Xruşşov tərəfindən edilən hər bir tənqidi qeydi İ.Mustafayev çox ağrılı və həyəcanlı qarşılayır və hər şeyi inkar etməyə çalışaraq, bununla da özünün siyasi cəhətdən yetkin olmadığını göstərmişdir.

İşi yoxlayanların dediklərinə görə, hələ yoxlamanın lap əvvəlində İ.Mustafayev bu işi aparmanı kənar, qeyri-adi, elə bil şəxsən onun «ayağı altını qazıma» kimi qəbul etmiş və burada deyildiyi kimi, Sov.İKP katiblərini yoxlayanları ləkələmək məqsədilə şikayət etməyə başlamışdır.

Beləliklə, Rəyasət Heyətinin iclasında Azərbaycan KP MK katibi Mustafayev özünün siyasi cəhətdən yetkin olmadığını göstərdi və bununla da Rəyasət Heyəti üzvlərinin, Sov.İKP MK katiblərinin, iştirak edən ittifaq respublikaları rəhbərlərinin hiddətinə səbəb oldu.

Qeyd etmək lazımdır ki, bütün bunlar ilk dəfə deyil ki, Mustafayevin başına gəlir. Hələ 1955-ci ilin avqustunda Azəbaycan KP MK bürosunun qərarlarında MK bürosu və şəxsən Mustafayevin işində olan ciddi qeydlər göstərilmişdi. Bu qərar Xruşşovun təşəbbüsü ilə bütün Sovet İttifaqı partiya orqanlarına göndərilmişdi. Bu da onun ünvanına deyilən tənqidi qeydlərə qarşı dözülməz münasibəti, kəskin özünəarxayınlılığı və öz səhvsizliyinə inamı, kollektiv rəhbərlik prinsiplərinin pozulması və təkbaşına qərarlar qəbul etməsi, qərar hazırlanması və qəbul edilməsində göstərdiyi düşüncəsiz, tələsik və təmkinsiz atılmış addımlar göstərilir. (7.V.42-45)

Qeyd etmək lazımdır ki, bu illər ərzində Mustafayev həqiqətdə nəinki öz səhvlərini düzəltməmiş, hətta onları artırmışdı. Məlum olduğu kimi, S.ov.İKP MK-nın respublikaya gələn və ya bu məsələlərlə Moskvada məşğul olan bir çox üzvlərinə qarşı Mustafayev çox düşməncəsinə yanaşır (7.V). Misal üçün, 1955-ci ildə onun Qramova, təlimatçı Borçova, inzibati şöbənin təlimatçısı Miçura, Qikunova olan münasibətini göstərə bilərik.

Bu məsələdə düzgün olmayan meyllər (və ya ideyalar) ona gətirib çıxartdı ki, kolxozçuların şəxsi istifadəsində olan mal-qara üç dəfə artdı, ancaq ümumi sektorda iri buynuzlu mal-qaranın sayı aşağı düşdü. Mustafayevin siyasi cəhətdən yetkin olmaması özünü dövlət dili haqqında məsələdə, məktəblərdə Azərbaycan dilinin tədrisi məsələsində göstərdi.

Mustafayev lazım bilməmişdi ki, Sov.lKP MK zəng vurub bu məsələ ilə bağlı məsləhətləşsin. Dövlət dili məsələsində o, İbrahimovun fikri ilə hesablaşmışdı. Hər halda, bu vacib məsələ ilə bağlı o Sov.İKP MK-ya zəng vurmalı idi, lakin o bunu etməmişdi. Bu fikir həmçinin dilin məktəbdə tədrisinə də aiddir.

1955-ci ilin avqustundan sonra partiya cəsarətimiz və xarakterimiz çatmadı ki, İ.Mustafayevə və keçmiş MK büro üzvü İbrahimova öz yerlərini göstərək, biz lazımınca qətiyyət göstərib Mustafayev və İbrahimovun siyasi yetkinsizliyini aradan qaldıra bilmədik. Prinsipial tələbkarlıq əvəzinə, biz bəzən Mustafayevi tərifləyir,

onun nöqsanlarına qarşı tənqidsiz yanaşaraq, əyilərək ona salam verirdik. Sov.İKP MK katibi Furçeva bu cür reverans hallarını Sov.İKP MK katibliyində kəskin tənqid etmişdi.

Bu ilin 16-17 iyununda MK plenumunda Mustafayev İmam Daşdəmiroviç və İbrahimov Mirzə arasında olan diskussiya hələ yadımızdadır. Əslində plenum düzgün olmayan istiqamət götürdü. Respublika partiya orqanlarının vacib məsələlərinin müzakirəsi kənara qoyuldu və İbrahimovun Mustafayevə qarşı olan əsassız tənqidi və şəxsi fikri müzakirə olundu.

Plenum əslində bu çıxışlara lazımi siyasi qiymət verə bilmədi. Həmçinin İbrahimova və Mustafayevə şəxsi ideyalarının müzakirəsindən qurtarmaq və Azərbaycan dili məsələsində, zəhmətkeşlərin beynəlmiləl tərbiyəsində buraxdıqları ciddi səhvləri aradan qaldırmaq istiqamətində yol göstərməkdə, Sov.İKP MK-nm Stalin haqqında qərarlarından köklü nəticələr çıxarmaqda da kömək edə bilmədi. (8.V.232-233)

MK katibliyində, mən və Azərbaycan KP MK-nın digər büro üzvləri Mustafayevin düzgün olmayan mövqeyini məzəmmət etdik və hal-hazırda olan məruzə və çıxışlarda irəli sürülən nöqsan və iradlardan nəticə çıxarmaqla, onların aradan qaldırılması yollarını fikirləşirik.

Heç kim üçün sirr deyil ki. MK üzvləri hər hansı nomenklatur vəzifəyə kiminsə namizədliyini irəli sürərkən, ilk növbədə çalışırlar ki, həmin insana Mustafayevin münasibətini öyrənsinlər. Ən pis olanı isə odur ki, Mustafayev düşünülməmiş təklifləri və layiq olmayan işçiləri müdafiə edirdi.

Hesab edirəm ki, Mustafayevin ayrı-ayrı şəxslərə qeyri-obyektiv münasibətinə də diqqət yetirilməlidir.

MK bürosunun bəzi üzvlərinin Mustafayevə qarşı olan ədalətli tənqidi qeydlərinə qarşı düzgün olmayan münasibətini qeyd etməmək olmaz. Burada milli siyasətin həyata keçirilməsində baş qaldıran çətinlikləri də nəzərə almaq lazımdır. MK bürosu bir çox məsələlərə, əsasən sənaye məsələsilə ciddi məşğul olmur. Mustafayev öz çıxışında Bakı komitəsinin bu təklifinin hələ vaxtı yetişmədiyini bildirib, onu inkar etdi. (7.V. 112-114)

Bakı partiya təşkilatının işində çoxlu ciddi nöqsanlar və səhvlər vardır.

Azərbaycanda işlərin vəziyyətini yoxlayan Sov.İKP MK aparatının işçiləri zəhmətkeşlərin ehtiyaclarına qarşı bəzi idarə və təşkilatların rəhbər işçilərinin məsuliyyətsizliyinin səbəblərini aydınlaşdırmaqda bizə kömək etdilər.

Sov.İKP MK işçiləri tərəfindən aşkar edilmiş faktlardan aydın olur ki, şəhər partiya komitəsi və aparatla ilkin partiya təşkilatının arasında əlaqə çox zəif olub.

MK I katibi Mustafayev öz işində çox kobud səhvlərə yol vermişdir və Sov.İKP MK, MK Rəyasət Heyəti çox ədalətli olaraq Azərbaycan KP MK, MK bürosu və şəxsən Mustafayev haqqında qərar qəbul etmişdir. (7.V.146-147)

Beləliklə, 1958-ci ildə M.İbrahimov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri S.Rəhimov isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsindən azad edildi. İ.D.Mustafayev isə 1959-cu ilin iyulunda Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən uzaqlaşdırıldı. V.Axundov bu vəzifəni tutdu.

Bütünlüklə XX əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycanda cərəyan edən bu proseslər respublikanın sosial-iqtisadi inkişafında, milli dirçəlişində, milli özünüdərkdə və bir sıra digər sahələrdə əhəmiyyətli rol oynamışdır.

Plenumda çıxışların məzmunu, xüsusilə İ.D.Mustafayevin, M.İbrahimovun,

Rəhimovun, Sadıxovun, Bayramovun və digərlərinin çıxışları nəyi göstərirdi:

Birinci: Milli Respublikaların hüquqlarının məhdudluğunu, Respublikaya Moskvanın təzyiqlərini, ciddi nəzarətinin olduğunu, milli hüquqların pozulduğunu;

İkinci: respublika rəhbərliyinin mərkəz tərəfindən təyin edildiyini və vəzifədən uzaqlaşdırıldığını;

Üçüncü, respublikanın sosial-iqtisadi inkişaf planlarının mərkəzdə hazırlanması və icra üçün yerlərə göndərilməsini, planların yerinə yetirilməsinin məcburi olmasını;

Dördüncü: iqitisadi-sosial inkişaf planları hazırlanarkən milli respublikaların maraqlarının, rəylərinin, təbii-coğrafi və iqlim şəraitinin nəzərə alınmamasını; deməli milli respublikaların milli iqtisadi strukturunun qurulması arxa plana keçir, öndə mərkəzin, hakim millətin maraqları dayanırdı.

Beşinci: təhlillər və araşdırmaları göstərir ki, milli respublikada istehsaldan əldə edilən gəlirlə, mərkəzi büdcədən ayrılan pay arasında kəskin ziddiyyətlər mövcud olmuşdur və s.

## ƏDƏBİYYAT


1. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında Bakı: Elm, 2004, 326 s.
2. Həsənli C. Azərbaycanda Milli məsələ siyasi rəhbərlik və ziyalılar 1954-1959. Bakı: Elm, 2008, 544 s.
3. "Kommunist" qəzeti 24-29 iyun, 1959
4. Azərbaycan Respublikası siyasi partiyalar ictimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi fond 1, siyahı 46, iş 16, 28; 43; 47, 48; siyahı 41, iş 211, 334-339
5. AR SPİH MDA, f. 1.S42, iş 79
6. Kommunist qəzeti, 9 yanvar 1959; 14 yanvar 1959; 24-29 yanvar
7. AR SPİH MDA f. 1, s.46, iş 78; 25; 26, 125, iş 24
8. Mustafayev İ.D. Az. KP XXII qurultayına Az KP MK-nın hesabat məruzəsi. Bakı, Azərbaycan, 1958, 114 s.
9. İbrahimov M. Azərbaycan dili. Bakı, Azərnəşr, 1959, 112 s.
10. Ali Sovetin məlumatı, Bakı, 1957, № 3, 7, 8
11. Ali Sovetin məlumatı, Bakı, 1958, № 8, 9
12. İ.Musayev Azərbaycan Kommunist Partiyası XXI qurultayına Azərbaycan KP MK-nın hesabat məruzəsi, Bakı, 1956, 132 s.
13. AR SPİH MDAf.1,siy. 324, iş 418
14. "Kommunist" qəzeti. 1959, 6-8 iyul


## IX ПЛЕНУМ ЦЕНТРАЛЬНОГО КОМИТЕТА АЗЕРБАЙДЖАНСКОЙ КОММУНИСТИЧЕСКОЙ ПАРТИИ
## (6 июля 1959 г.)


**И.Х.ЗЕЙНАЛОВ, Х.Р.САФАРОВ**


## РЕЗЮМЕ


В научной статье анализируются выступления, связанные с деятельностью руководства республики на пленуме Центрального Комитета Коммунистической Партии Азербайджана, проведенном 6 июля 1959 году.

В статье также существенное место занимает обсуждение отчетов и предложений полных клеветы, подготовленных комиссией, посланной в Азербайджан под руковод-

ством заместителя начальника отдела организации ЦК КПСС И.Шикина, для отстранения от должности руководителей республики. В статье также привлекают внимание такие вопросы, как сущность реакционно-националистической политики Москвы, проявления правящего национализма, враждебная позиция к руководству республики, ревностное отношение к демократическим процессам в республике и другие вопросы. В тоже время в статье основное место занимают выступления С.Д.Мустафаева, И.Рагимова, М.Ибрагимова на Пленуме.

## THE 9$^{th}$ PLENUM OF CENTRAL COMMITTEE OF AZERBAIJAN COMMUNIST PARTY (July 6, 1959)

**I.Kh.ZEYNALOV, Kh.R.SAFAROV**

### SUMMARY

The paper analyzes speeches on the activity of republican administration at the Plenum of Central Committee of Azerbaijan Communist Party held on July 6, 1959.

The author elucidates and discusses reports and offers full of slander and aspersion prepared by the commission sent to Azerbaijan under the leadership of the deputy chief of the organization department of Sov. UCCCP, I.Shikin for the removal of republican administration. Furthermore, the essence of the reactionary nationalist policy of Moscow, manifestations of ruling nationalism, preconceived position against republican administration, as well as towards democratic processes in the republic and some other questions raise interest in the article. Speeches of S.D.Mustafayev, S.Rahimov, M.Ibrahimov at the Plenum are illustrated in the article as well.